HÜRRİYYƏT

2 May / 2023-cü il





# Zəfər tariximizin qəhrəmanı

## 1 may Sənan Ağazadənin anadan olduğu gündür

Mənfur erməni dığaların işğal etdiyi Qarabağın taleyi Lənkəran rayonu, Göyşaban kəndində doğulub boya-başa çatan Sənan Nizami oğlu Ağazadəni çox düşündürürdü. Bunu heç cür müdriklər beşiyi, qəhrəmanlar yurdu, canından artıq sevdiyi doğma Azərbaycanın qeyrətinə, şöhrətinə sığışdıra bilmirdi. Odur ki, sinəsini yanar od edib yağıdan öc almaq məqsədilə 2019-cu il iyulun 22-də hərbi xidmətə yollanır. Əsgərliyi cəbhə bölgəsinə düşən Sənan hərbi paltar geyinib müqəddəsliyini hər şeydən əziz bildiyi Vətəninin daşına, torpağına qurban deyib onun keşiyində dayanır.



İlk gündən adına öyündüyü Azərbaycana nümunəvi xidmət göstərməklə hərbi hissədə zabitlərin, əsgərlərin sevimlisi olur. Cəsurluğu, mərdliyi, igidliyi, vətənpərvərliyi, saflığı qatıldığı təlimlərdə Sənana uğur qazandırır. Həmişə də deyir ki, Qarabağımızı işğalda saxlayan yağı düşməndən tezliklə qisas alınmalıdır. Bu yolda ölmək belə hər bir qeyrətli oğul üçün şərəfdir. Çünki şəhid qanı axmayan torpaqdan Vətən olmaz.

Nəhayət, Sənanın Vətənə olan sonsuz məhəbbət hissi İkinci Qarabağ müharibəsində tam özünü göstərir. 30 il həsrətində olduğumuz haqq savaşımızın ilk günündə Azərbaycan Silahlı Qüvvələrin əsgəri Sənan qeyrətli oğullar sırasında ölümün gözünə dik baxmaqla, Vətənin harayına səs verir, odlu-alovlu səngərdə yerini alır. İştirak etdiyi bir-birindən ağır müharibə meydanlardan yalnız qələbə sorağı gəlir. İgid əsgərin Vətənə, torpağa bağlılığı sanki döyüşdən-döyüşə ona yeni güc verir. Erməni dığalarına qarşı sərraf tuşlayıcı kimi vuruşur, onlara göz açmağa imkan vermir. Göstərdiyi hünər, düşmənə vurduğu sarsıdıcı zərbələr gündən-günə artır. Cənnət-məkan Qarabağımızın hər kəndi uğrunda gedən qanlı müharibədə yağının çoxsaylı canlı qüvvəsini, saysız-hesabsız texnikasını məhv etməklə ürəyində bəslədiyi qisasını ondan ala bilir.

Sənanın axırıncı savaşı dığalarla oktyabrın 14-də olur. Füzuli rayonunda başlanan ağır müharibə meydanında son damla qanına qədər döyüşür. Canını Vətəninə, torpağına fəda edəndə ömrünün 20-ci baharına qədəm qoymuşdu. Bəli, milyonların ürəyində öz şərəfli ölümü ilə mərdlik, igidlik, simvoluna çevrilən Sənan Ağazadə dövlət tərəfindən "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medallarla təltif edilib.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**